Gürcüstan prezidenti sevdiyi qadından danışdı

Yazan
29.10.13 20:30 -



Gürcüstanın yeni seçilmiş prezidenti Georgi Margvelaşvili şəxsi həyatı ilə bağlı sualı cavablandırıb.

Jurnalistlərə danışan Margvelaşvili bir xanımla ciddi münasibətlərinin olduğunu və bu gün nəyisə dəyişmək niyyətində olmadığını bildirib.

Yerli mətbuatda Margvelaşvilinin musiqiçi və rəssam Maka Çiçua ilə münasibətlərinin olduğu yazılır. Onların birlikdə ictimai yerlərdə göründükləri və bunu heç kimdən gizlətmədikləri bildirilir.

Margvelaşvili hazırda subaydır. Onun bir qızı var.